# "Mən SABAHın məzunuyam"

## 2018-2019-cu tədris ilində 701 SABAH məzunu təhsilini başa vurur






İyulun 5-də "Mən SABAHın məzunuyam" mərasimi keçirilib.

Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Təhsil naziri Ceyhun Bayramov, ali təhsil müəssisələrinin rektorları, SABAH qruplarının əməkdaşları və tələbələr iştirak ediblər.

Tədbirdən öncə iştirakçılar "Mən SABAHın məzunuyam" adlı sərgi ilə tanış olublar.

Tədbirdə SABAH qruplarının fəaliyyəti haqqında videoçarx nümayiş olunub.

Təhsil naziri Ceyhun Bayramov tədbirdə çıxış edərək SABAH qruplarının bu gün ölkəmizin ali təhsil sistemində xüsusi yer tutduğunu və xüsusiyyətini diqqətə çatdırıb. Nazir bildirib ki, SABAH layihəsi ölkə Prezidenti İlham Əliyev tərəfindən təsdiqlənmiş "Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq ali təhsil sistemində keyfiyyət göstəricilərinin daha da yüksəldilməsi məqsədilə başladılıb.

Ceyhun Bayramov qeyd edib ki, hazırda SABAH qrupları 12 ali təhsil müəssisəsində fəaliyyət göstərməklə 39 ixtisas üzrə 2300-dən çox tələbəni əhatə edir və müasir tədris laboratoriyası funksiyasını yerinə yetirir.

SABAH tələbələrinin uğurlu fəaliyyətindən söz açan Təhsil naziri 288 SABAH tələbəsinin bu il magistratura pilləsinə qəbul olunduğunu xüsusi qeyd edib.

Nazir SABAH məzunlarının uğurlu fəaliyyətinə toxunaraq bir daha bütün məzunları təbrik edib və onlara gələcək həyatlarında uğurlar arzu edib.

Mərasimdə rəmzi SABAH açarı III kurs tələbələrinə verilib.

Sonda SABAH qruplarının himni səsləndirilib.

Tədbir bədii hissə ilə davam etdirilib.

SABAH qrupları 2014-2015-ci tədris ilində 34 ixtisas üzrə 7 dövlət ali təhsil müəssisəsində yaradılıb. Hazırda SABAH qrupları 12 ali təhsil müəssisəsində fəaliyyət göstərməklə 39 ixtisas üzrə 2300-dən çox tələbəni əhatə edir.

2018-2019-cu tədris ilində 701 SABAH məzunu təhsilini başa vurur.